Azadlıq Radiosu

DÜNYA

# Tramp: 'Hörmüz tam açıqdır' – İran xüsusi rabitə xətti quracağını açıqladı

44 dəqiqə öncə



ABŞ prezidenti Donald Tramp Ağ evin Oval ofisində

ABŞ prezidenti **Donald Tramp** Hörmüz boğazının tamamilə açıldığını elan edib. O, iyunun 21-də bildirib ki, boğazdan rekord həcmdə neft daşınıb: **"Boğaz tam açıqdır. İki mühüm nəticə əldə etdik: su yolu açıqdır və İran heç vaxt nüvə silahına sahib olmayacaq."**

Fevralda ABŞ və İsrail İranın nüvə proqramını dayandırmaq məqsədilə hərbi əməliyyat başlatmışdı. Həmin dövrdə boğaz əvvəlcə İran, sonra isə ABŞ tərəfindən bloklanmışdı. Bu səbəbdən qlobal neft qiymətləri kəskin artmış, dünya iqtisadiyyatı böhran astanasına çatmışdı.

"The Financial Times" peyk görüntülərinə istinadən xəbər verir ki, hazırda boğaz yaxınlığında 441 tanker növbə gözləyir.

İranın baş danışıqçısı **Məhəmməd Baqir Qalibaf** Hörmüz boğazında insidentlərin qarşısını almaq üçün xüsusi rabitə xətti qurulacağını açıqlayıb.

Hal-hazırda ABŞ və İran arasında İsveçrədə diplomatik danışıqlar aparılır. İlk raunddan sonra Vaşinqton sanksiyalar altında olan İran neftinin hasilatına və satışına müvəqqəti icazə verib. Buna qarşılıq olaraq Tehranın Beynəlxalq Atom Enerjisi Agentliyinin (AEBA) müfəttişlərini yenidən ölkəyə buraxacağı gözlənilir.

ABŞ vitse-prezidenti **Cey Di Vens** bildirib ki, agentliklə üçtərəfli müzakirələr bu həftə başlayacaq, amma İran tərəfi bunu hələ rəsmi təsdiqləməyib.

İranın xarici işlər naziri **Abbas Əraqçi** isə dondurulmuş vəsaitlərin bir hissəsinin qaytarılması ilə bağlı razılıq əldə olunduğunu iddia edir. Ancaq Vens bunun hələ reallaşmadığını vurğulayıb.



ABŞ vitse-prezidenti Cey Di Vens ABŞ və İran arasında yüksəksəviyyəli danışıqlardan sonra media nümayəndələrinə açıqlama verir.

22 iyun

## Vens: İran nüvə müfəttişlərini ölkəyə buraxmağa razılaşıb

ABŞ vitse-prezidenti **Cey Di Vens** İsveçrədəki danışıqlarda 60 gün ərzində yekun sülh müqaviləsi imzalamaq üçün böyük irəliləyiş olduğunu deyib. Onun sözlərinə görə,

razılaşmanın əsas şərtləri Hörmüz boğazından təhlükəsiz keçid, Livanda döyüşlərin dayandırılması və İranın nüvə müfəttişlərini ölkəyə buraxmasıdır.

**"Gələcək uğurlu saziş üçün çox yaxşı təməl qoyduq. Yekun saziş bir evdir. Hələlik evi tikməsək də, təməlini qoymuşuq"**, – Vens Bürgenştokda gecəboyu davam edən danışıqlardan sonra jurnalistlərə bildirib.

Hələlik çox az detal açıqlansa da, bu razılaşma ABŞ və İran prezidentlərinin ötən həftə imzaladığı memorandumun hədəflərinə uyğundur. Həmin sənəddəki 14 bəndin bir çox şərtləri hələ də tam dəqiqləşdirilməyib.

Vens vurğulayıb ki, Tehran Beynəlxalq Atom Enerjisi Agentliyinin (AEBA) müfəttişlərini ölkəyə buraxmağa razılıq verib: **"İranlılar AEBA müfəttişlərini yenidən ölkəyə dəvət etməyə razılaşdılar. Bu, İranda tam nüvəsizləşdirməyə və ya nüvə proqramının dayandırılmasına doğru atılan ilk addımdır. Bu, məhz bizim istədiyimiz, məhz xahiş etdiyimiz şeydir".**

Tərəflər həmçinin Hörmüz boğazının neft daşımaları üçün açıq saxlanılması və minalardan təmizlənməsi üçün birgə mexanizm hazırlayıblar.

İranın Xarici İşlər naziri **Abbas Əraqçi** də sosial şəbəkədə Vensin fikirlərini təsdiqləyərək böyük tərəqqinin olduğunu bildirib. O yazıb: "Pakistan və Qətərin vasitəçiliyi Livan müharibəsini bitirmək üçün böyük imkan yaratdı". Əraqçi əlavə edib ki, neft satışına qoyulan qadağalar və blokada ləğv olunub, dondurulmuş bəzi vəsaitlər geri qaytarılıb, həmçinin İranın iqtisadi bərpası üçün genişmiqyaslı plan başladılıb.

Buna baxmayaraq, bir çox İsrail lideri bu danışıqlara şübhə ilə yanaşır. Onlar İsrailin bu sazişdə tərəf olmadığını bildirərək Livandakı "Hizbullah" mövqelərinə hücumların davam etdiriləcəyini vurğulayıblar.




Pakistanın baş naziri Şahbaz Şərif ABŞ, İran, Pakistan və Qətər arasındakı dördtərəfli görüşdən əvvəl ABŞ vitse-prezidenti Cey Di Vens və Qətərin baş naziri Şeyx Məhəmmədin yanında çıxış edir.

## ABŞ və İran 60 günlük yol xəritəsini razılaşdırıb

Qətər və Pakistan ABŞ-İran danışıqlarının ilk raundunun yekunlarına dair birgə bəyanat yayıb. Bildirilib ki, İsveçrənin Bürgenştok şəhərində keçirilən görüş "müsbət və konstruktiv atmosferdə" baş tutub, həmçinin növbəti texniki danışıqlar üçün mexanizmin yaradılması da daxil olmaqla, ümidverici tərəqqiyə nail olunub.

Görüşün nəticəsi olaraq tərəflər danışıqlar prosesinə nəzarət üçün Yüksək Səviyyəli Komitə təsis ediblər. Komitənin nəzdində fəaliyyət göstərəcək işçi qruplar nüvə proqramı və sanksiyalar məsələləri ilə məşğul olacaq, razılaşmanın icrasına nəzarət edib mübahisələri çözəcək. Komitə artıq 60 gün ərzində yekun sazişə nail olmaq üçün "yol xəritəsi"ni razılaşdırıb.

Bundan əlavə, tərəflər Hörmüz boğazında gəmilərin təhlükəsiz hərəkəti və yarana biləcək problemlərin qarşısını almaq üçün birbaşa rabitə xətti açmaq, eləcə də Livandakı atəşkəsə nəzarət edəcək koordinasiya mərkəzi yaratmaq barədə razılaşıblar. Bütün məsələlər üzrə texniki danışıqlar həftənin sonuna qədər Bürgenştokda davam edəcək.

ABŞ hələlik Qətər və Pakistanın bəyanatlarını şərh etməyib. Tərəflərin distant şəkildə imzaladığı memoranduma əsasən, onlar Hörmüz boğazını blokadadan azad etmək öhdəliyi götürüb, ABŞ isə sənəd imzalanan kimi İrana neft satışına icazə verib. Medianın

yaydığı layihə mətninə görə, yekun saziş bağlandıqdan sonra ABŞ mərhələli şəkildə bütün növ sanksiyaları ləğv etməyi, dondurulmuş İran aktivlərini qaytarmağı, habelə İran üçün bərpa planı hazırlamağı öhdəsinə götürüb.

Vaşinqton hələlik Qətər və Pakistanın birgə bəyanatını rəsmi olaraq şərh etməyib. ABŞ vitse-prezidenti **C.D.Vens** daha öncə bildirmişdi ki, tərəflər həm gələcək razılaşma, həm də Livanda İsraillə "Hizbullah" arasında davam edən toqquşmalarla bağlı bir çox məsələni hələ də yoluna qoymalıdırlar.




ABŞ vitse-prezidenti Cey Di Vens Bürgenştokda ABŞ, İran, Pakistan və Qətər arasında keçirilən dördtərəfli görüş zamanı ABŞ prezidenti Donald Trampın kürəkəni Cared Kuşneri dinləyir.

## Bürgenştokda 80 dəqiqəlik 'soyuq' görüş: Əl sıxmadılar, amma danışdılar

ABŞ və İran arasında İsveçrənin Bürgenştok şəhərində keçirilən danışıqların ilk raundu təxminən 80 dəqiqəlik müzakirələrdən sonra başa çatıb. Bu barədə İranın "Fars", "ISNA" agentlikləri və "Əl-Cəzirə" telekanalı məlumat yayıb.

Pakistan və Qətərin vasitəçiliyi ilə aparılan danışıqlar daxili məsləhətləşmələr üçün müvəqqəti olaraq dayandırılıb.

Amerika nümayəndə heyətinə ABŞ-nin vitse-prezidenti **Cey Di Vens** rəhbərlik edir. İranı isə parlamentin spikeri **Məhəmməd Baqir Qalibaf** və xarici işlər naziri **Abbas Əraqçi** təmsil edir. Tərəflər arasında mümkün razılaşmanın parametrlərini hazırlamaq məqsədilə texniki, ekspert və nəzarət qrupları yaradılıb.

"Tasnim" agentliyinin məlumatına görə, İran rəsmiləri danışıqlardan öncə birgə fotosessiyaya qatılmaqdan və ABŞ nümayəndə heyətinin əlini sıxmaqdan imtina ediblər. Fotosessiya İran heyəti olmadan baş tutub, bundan sonra onlar danışıqlar zalına daxil olublar. Bununla belə, "Əl-Cəzirə"nin yaydığı kadrlarda həm İran, həm də ABŞ təmsilçilərinin pakistanlı vasitəçilərlə salamlaşaraq əl sıxışdıqları əks olunub.

### Vens: "Həllini gözləyən məsələlər qalır"

Görüşün ilk raundunu şərh edən **C.D.Vens** danışıqlarda irəliləyişin olduğunu bildirib. Onun sözlərinə görə, tərəflər həm Vaşinqton-Tehran xəttindəki gələcək razılaşma, həm də İsrailin "Hizbullah"a qarşı hərbi əməliyyat keçirdiyi Livandakı vəziyyətlə bağlı bir sıra məsələləri həll etməlidirlər. "Hizbullah" ABŞ və İsraildə terror təşkilatı kimi tanınır. Avropa İttifaqı isə qruplaşmanın siyasi qanadını deyil, yalnız hərbi qolunu terrorçu hesab edir.

### İranın şərtləri və Trampın sərt xəbərdarlığı

"Tasnim" agentliyinin danışıqlar qrupuna yaxın mənbəyə istinadən verdiyi xəbərə görə, Tehran Hörmüz boğazının açılması üçün iki şərt irəli sürüb: Livanda hərbi əməliyyatların dayandırılması və İran nefti ilə neft məhsullarının ixracına icazə verilməsi.

Danışıqların getdiyi bir vaxtda ABŞ prezidenti **Donald Tramp** Hörmüz boğazında gəmilərin hərəkətinin mümkün məhdudlaşdırılması ilə bağlı Tehrana sərt xəbərdarlıq edib. Tramp bəyan edib ki, belə bir addım atılarsa, İranı dövlət kimi mövcudluğunu itirmək təhlükəsi gözləyir.

Mənbələrin məlumatına görə, İran nümayəndə heyəti Trampın bu təhdidləri ilə bağlı Amerika tərəfinə kəskin etirazını bildirib. Vaşinqton isə hələlik bu etirazlara rəsmi şərh verməyib.


## Buna da bax:

'Reuters': SEPAH İraqda Körfəz ölkələrinə hücum üçün gizli qruplar yaradıb

Netanyahu: İsrail hərbçiləri Livanda qalacaq

Neft ucuzlaşdı, amma əsas imtahan qarşıdadır – Hörmüz

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur